# *Sahibə QAFAROVA:*
# "Xain hücumun obyektiv araşdırılmasını tələb edirik"

Milli Məclisin Sədri Sahibə Qafarova ölkəmizin İran İslam Respublikasındakı səfirliyinə qarşı törədilmiş terror aktı ilə əlaqədar öz feysbuk hesabında paylaşım edib.



Paylaşımda deyilir: "Yanvarın 27-də səhər saatlarında Azərbaycan Respublikasının İran İslam Respublikasındakı səfirliyinə qarşı törədilmiş terror aktını şiddətlə qınayırıq. Bu xain hücumun tezliklə və obyektiv şəkildə araşdırılmasını, günahkarların cəzalandırılmasını tələb edirik. Hücumun qarşısını alarkən şəhid olan səfirliyimizin əməkdaşına Allahdan rəhmət diləyir, yaxınlarına dərin hüznlə başsağlığı veririk!"

---

Azərbaycan.- 2023.- 28 yanvar.- S.3.